# Azərbaycan Memarlar İttifaqının Qarabağ ərazisində regional bölmələri yaradılacaq

Azərbaycan Memarlar İttifaqının Katibliyi tərəfindən Qarabağ ərazisində qurumun iki regional bölməsinin - Yuxarı Qarabağ üzrə Şuşa şəhərində və Aşağı Qarabağ üzrə Ağdam şəhərində yaradılması barədə qərar qəbul edilib.

İttifaqdan bildirilib ki, Şuşa və Ağdam rayon icra hakimiyyəti başçılarının da dəstəklədiyi bu qərara uyğun olaraq, imkan yaranan kimi Azərbaycan Memarlar İttifaqı Katibliyinin nümayəndəliyinin Şuşa və Ağdam yerli icra hakimiyyəti orqanları ilə birlikdə təşkilati məsələləri həll etmək üçün Şuşa və Ağdam şəhərlərinə yollanması nəzərdə tutulub.

Azərbaycan.- 2020.- 20 noyabr.- S. 8.